NÜSXƏ № 1

# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

№ 212-23

**Bakı şəhəri,** « 15 » sentyabr 2006 il

**«Əməliyyat-axtarış fəaliyyəti prosesində gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrin növlərinin siyahısı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 avqust tarixli 139-6 nömrəli qərarına əlavə və dəyişikliklər edilməsi barədə**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 avqust tarixli 139-6 nömrəli qərarı ilə təsdiq edilmiş «Əməliyyat-axtarış fəaliyyəti prosesində gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrin növlərinin siyahısı»na aşağıdakı əlavələr və dəyişikliklər edilsin:

- 3-cü banddə «rabitə kanallarından» sözlərindən sonra «və güc kabel xətlərindən» sözləri əlavə edilsin;

- 4-cü bənd aşağıdakı redaksiyada verilsin:

«Poçt, teleqraf və digər göndərişlərin yoxlanılması zamanı istifadə olunan proqram və xüsusi texniki vasitələr»;

- 15-ci banddə «üçün» sözündən sonra «proqram və» sözləri əlavə edilsin;

- 15-ci banddən sonra aşağıdakı redaksiyada 16-cı bənd əlavə edilsin:

«16. Elektron rəqəmli şifrlənmiş məlumatların açılışı üçün proqram və xüsusi texniki vasitələr».

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının
Baş naziri — A.Rasi-zadə